# Ən böyük motivasiya - yaşamaqdır

## Cərrahi əməliyyata hazırlaşan xəstələrlə psixoloji iş aparılmalıdır

**Ağır xəstəlik keçirən insanların sağlam insanlarla müqayisədə psixoloji vəziyyətlərinin ağır olduğu müəyyən edilib. Araşdırmaların nəticəsi göstərib ki, diabet və ürək xəstəlikləri olan insanlar depressiyaya və digər əqli xəstəliklərə daha meyilli olur.**



Bəs reanimasiyalara düşən ağır xəstələr necə? Pittsburq Səhiyyə Mərkəzinin həkimi Derek Angus ağır xəstəliklər və əqli durum arasındakı bağlılıqla bağlı tədqiqata rəhbərlik edib. Alimlər son 3 il ərzində Danimarkada reanimasiyaya düşən ağır xəstələrin xəstəlik tarixi ilə tanış olub. "Danimarkanın mühümlüyü nədədir? Burada hər bir insanın vəziyyətinə dair məlumat bazası mövcuddur. Biz sepsis və ya pnevmaniya kimi xəstəliyə tutulanlarla maraqlanırıq".

Araşdırmalar zamanı xəstəxanaya təcili yardımla gələnlərlə digər yollarla xəstəxanaya çatdırılanlar arasında müqayisə aparılıb. "Təcili yardım göstərilənlərin çoxunda psixoloji xəstəliklərin əvvəlcədən olduğu müəyyən edilib".

Alimlər heç vaxt psixoloji problemi olmayanlarla da maraqlanıb. Dr.Angusun dediyinə görə, xəstələrə və onların ailələrinə depressiya, nigaranlıq hissi keçirmək və travmalardan sonrakı narahatlıqların kritik xəstəliklərdən sağ qalanların ağırlaşması olduğunu demək olduqca çətindir. Araşdırmalar göstərib ki, risk xəstəxanadan çıxdıqdan sonrakı 3 ay ərzində daha yüksəkdir. Zamanla isə azalmağa başlayır.

Həkimlər bildirirlər ki, cərrahi əməliyyata hazırlaşan bütün xəstələr və uzunmüddətli xəstəliklərlə əlləşənlərin bütün hallarda psixoloji yardıma ehtiyacı var.

### PSİXOLOJİ FAKTOR

**Professor Adil Qeybullanın** sözlərinə görə, xəstəyə psixoloji kömək cərrahi əməliyyatın əsas faktorudur. Belə ki, xəstə əməliyyata gələnə kimi onun müxtəlif şikayətləri olur: "Hər halda, xəstələrdə şikayətləndikləri ağrılardan xilas olmaq üçün müəyyən istək olur. Bunun xəstəyə deyilməsi və kömək edilməsi həkimdən müəyyən psixoloji üsullar tələb edir. Bunu xəstəlikdən asılı olaraq xəstənin özünə də, yaxınlarına da demək olar. Xəstənin psixologiyası da nəzərə alınmalıdır. Ola bilər ki, ona müəyyən həqiqətlər deyilməsin. Hər bir halda, fərdi şəkildə yanaşma olmalıdır. Burda konkret resept yoxdur". Ancaq istənilən halda xəstəyə yanaşmada onun psixoloji durumu nəzərə alınmalıdır. Cərrahi əməliyyata getməzdən qabaq ola bilər ki, xəstə ilə müəyyən söhbətlər aparılsın, tədbirlər görülsün. Hər bir halda, xəstə cərrahi əməliyyat otağına rahat getməlidir". Professorun fikrincə, xəstələrin əməliyyatdan sonrakı yaşantıları da önəmlidir. Belə ki, xəstə problemin arxada qaldığını dərk etməlidir: "Bunun üçün xəstə yaxşı ağrısızlaşdırılmalıdır ki, gərginlik keçirməsin. İstər-istəməz keçirdiyi əməliyyat xəstənin yaddaşında iz buraxmış olur. Həkim xəstəyə həmin izi aradan qaldırmaqda kömək etməlidir".

### XƏSTƏ HƏKİMƏ İNANMALIDIR

**Ginekoloq-cərrah Naibə Həsənovanın** fikrincə, təcrübəli həkimin xəstənin psixoloji gərginliyinin aradan qaldırılmasında çətinliyi olmur. Belə ki, həkim ilk növbədə psixoloq olmalıdır ki, xəstə ilə ilkin tanışlıqda özünə inam yarada bilsin: "Xəstə həkimə inanmalıdır. Əgər xəstə əməliyyat olunacaqsa, bunun səbəbini başa düşməlidir. Həkim bunları xəstəyə düzgün anladırsa bu, psixoloji yardım deməkdir". Ginekoloqun fikrincə, xəstələrdən də, xəstəliklərdən də çox şey asılıdır. Belə ki, onkoloji problemi olan xəstələrdə daha çox qorxu olur. O zaman da həkimin psixoloji konsultasiyası xəstənin köməyinə gəlməlidir: "Elə xəstə var ki, elə əməliyyat günü həkimlə tanış olur. Onların arasında psixoloji anlaşmanın yaranması haqqında danışmaq bir qədər çətindir. Planlaşdırılmış əməliyyat ekstern əməliyyatdan daha yaxşıdır. Məsələn, uşaqlıqdankənar hamiləlik, uşaqlıq qanaxmaları və s. xəstəliklər zamanı bəzən xəstənin huşu özündə olmur. Burda artıq psixoloji yardıma ehtiyac yoxdur. Planlı əməliyyatlar isə xroniki, uzun müddət davam edən hər hansı xəstəliyə görə keçirilir. Əsas məsələ xəstəyə onun probleminin nədən ibarət olduğunu düzgün başa salmaqdır".

### HƏYATINI QURBAN VERMƏMƏK ÜÇÜN

**Mərkəzi Klinikanın uroloqu Elbəyi Daşdəmirli** bildirir ki, xəstələrlə söhbət zamanı öncə onlara xəstəliklərinin detalları izah edilməlidir: "Xəstəyə əməliyyatın onun üçün çox vacib olduğu başa salınmalıdır. "Heç nə görməyəcək və hiss etməyəcəksiniz. Narkozdan qorxmayın, indi müasir aparatlar var" deyə onlara izah edirik. Xəstələrdə bəzən anesteziya, ayılmamaq qorxusu olur. Belə xəstələri biz əlavə olaraq anesteziolorla da görüşdürürük". Uroloqun sözlərinə görə, çalışdığı sahə üzrə aparılan əməliyyatlarda xəstənin bir böyrəyi salamatdırsa, o, digər böyrəyinin itirilməsinə o qədər də reaksiya vermir: "Təbii ki, heç kim orqanla vidalaşmaq istəmir. Ancaq həyatını qurban verməmək üçün böyrəyinin birini verməli olduğunu başa düşəndə, xəstə bunu qəbul edir. Təbii ki, erkən dövrlərdə hər bir xəstə orqanını itirərsə, bununla asanlıqla barışa bilmir. Ancaq bir müddət sonra eyni insanları da ətrafında görüncə və yaşamına davam etdikcə buna ciddi şəkildə reaksiya vermir. Bundan əlavə, xəstə cərrahiyyə əməliyyatı zamanı üzərində əlavə işlər görülmədiyini bilirsə, onda rahat olur. Əməliyyatdan sonra isə gözləmədiyimiz, planlaşdırmadığımız bir iş görmüşüksə bu, xəstəyə deyilir. Bəzən xəstələr bunu bir az gərgin qarşılayırlar. Xəstə ilə həkimin səmimi münasibəti çərçivəsində psiyentin psixoloji gərginliyi tədricən aradan qalxır".

### ƏN BÖYÜK MOTİVASİYA - YAŞAMAQDIR

**Psixoloq Elnur Rüstəmovun** sözlərinə görə, insanların əməliyyata hazır olmasında və əməliyyatdan sonrakı proseslərdə psixoloji faktor böyük rol oynayır: "Müharibə şəraitində yaralanan əsgərlə adi şəraitdə yaralanan insanın psixoloji durumu eyni deyil. Müharibə şəraitində yaralanan daha tez sağalır. Çünki o, psixoloji olaraq özünü buna hazırlayıb. O, daha tez bərpa olunur və döyüşə qayıdır. Bu baxımdan, psixoloji faktor rol oynayır. İnsan var ki, 3 gündən sonra əməliyyata gedir, amma işə çıxır. İnsan var ki, əməliyyata gedəcəyini bilərkən bir ay əvvəldən yataqda yatır. Burada motivasiya böyük rol oynayır. Xaricdə insanlar "əməliyyat qurtardımı, həyata qayıdım"- deyə düşünürlər. Bizdə isə "filankəs mənə baş çəksin, mənə baş çəkməyə gələndə filan şey gətirsin" deyə düşünürlər". Psixoloq həmçinin, çox şeyin xəstənin keçirdiyi əməliyyatdan da asılı olduğunu bildirir. Belə ki, plastik, estetik və ya digər cərrahi əməliyyatlar üçün xəstənin psixoloji hazırlığı çox vacibdir: "Bildiyim qədər bizdə də transplantasiya əməliyyatları zamanı donorlarla psixoloji söhbətlər aparılır. Bu söhbətlərin aparılmasında məqsəd həmin xəstəni psixoloji olaraq əməliyyata hazırlamaq, xəstənin orqanizminin daha tez bərpa olunmasına və əməliyyatın daha uğurlu keçməsinə zəmin yaradır. Azərbaycanda geniş yayılmasa da bu praktikadan dünyada da istifadə olunur. Düşünürəm ki, bir müddətdən sonra bu, bizdə də geniş tətbiq olunacaq. Ancaq hazırda istərdik ki, estetik və plastik əməliyyatlarda bu üsuldan geniş istifadə olunsun. Çünki o pasiyentlərin içərisində təkrar əməliyyata gedənlər var. Əgər onlarla psixoloji iş aparılsa, bəlkə də həmin əməliyyatların bir qisminə ehtiyac olmayacaq. Düzdür, bu, əməliyyat aparan mərkəzlərin marağında olan iş deyil. Amma ümumən insan faktorundan çıxış edəndə bu, vacibdir". Psixoloq hesab edir ki, xüsusən əməliyyatdan sonra xəstələrlə psixoloji söhbətlərin aparılması vacibdir: "Bəzən əməliyyat uğurla keçsə də, xəstələrin psixoloji durumu narahat olur. Bu cür hallarda xəstələrlə fərdi şəkildə söhbət aparılmalıdır. Düzdür, bu gün bizdə belə söhbətlər aparılır, ancaq geniş şəkildə tətbiq olunmur. Xəstəxanalar psixoloqların dəstəyindən istifadə edirlər, amma geniş şəkildə yox. Konkret onları ştatlı işə dəvət etmək söhbəti yoxdur". Psixoloqun fikrincə, ən böyük motivasiya yaşamaqdır və buna əlavə çalar qatmaq mümkündür. İnsanın evi, ailəsi, doğma və yaxınları, gördüyü işlər onun üçün motivasiya olmalıdır. Çünki onun həyata keçirdiyi ideyalar, qarşısında məqsədləri var. Psixoloq bunları vizuallaşdırır. Psixoloqun gördüyü iş həmin motivasiyanı formalaşdırmaqdır. Psixoloq onları qabartdıqca orqanizm özü-özünü bərpa edir".

**Təranə Məhərrəmova**

